**Rəy**

# O GÜN MÜTLƏQ GƏLƏCƏK

Azərbaycan tarixinin şanlı və eyni zamanda faciəli səhifələrindən birinə – Cənubi Azərbaycanda mövcud olmuş Milli hökumətinin bir illik fəaliyyətinə həsr olunmuş çoxsaylı müxtəlif səpkili əsərlər sırasına güneyli gənc jurnalist, şair və tədqiqatçı alim, hal-hazırda Kanadada yaşayan Miyanalı Əlirzanın bir müddət əvvəl Vankuver şəhərində Azərbaycan dilində ərəb qrafikası ilə nəşr etdirdiyi iki cildlik «Silahla ölçülən torpaq» (Cənubi Azərbaycanda 1945-1946-cı illər milli-demokratik hərəkat) kitabı əlavə olunmuşdur. Qeyd etmək lazımdır ki, bu əsər həmin mövzuya aid son üç ildə yazılmış üçüncü kitabdır. 2003-cü ildə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı Əkrəm Rəhimlinin «Güney Azərbaycanda milli-demokratik hərəkat» (1941-1946-cı illər), 2004-cü ildə mərhum siyasi-ictimai xadim, tarixçi alim H.Həsənovun «Cənubi Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) monoqrafiyaları nəşr olunmuşdur. Bu fakt 1941-1946-cı illərdə Cənubi Azərbaycanda baş vermiş milli-demokratik hərəkatın xalqın tarixində yeri, əhəmiyyəti və aktuallığı ilə izah oluna bilər.

Qısa müddət ərzində fəaliyyət göstərmiş Milli hökumətin fəaliyyəti o qədər fundamental, çoxcəhətli və mütərəqqi xarakter daşımışdır ki, onun bütün aspektlərini bir əsər çərçivəsində hərtərəfli və dolğun şəkildə işıqlandırmaq çox çətindir. Adı çəkilən əsərlər hərəkatın əsas hadisələri və mərhələlərini əks etdirməkdə müəyyən qədər üst-üstə düşsə də, bütövlükdə bir-birini təkrar etmir, əksinə, tamamlayırlar. Eyni zamanda müəlliflər fərqli dünyagörüşünə, siyasi, ictimai yönümə malik olduqlarından hərəkata, xüsusən onun ayrı-ayrı ünsürlərinə nisbətən müxtəlif yanaşmalar nümayiş etdirmiş, müxtəlif hadisələrin işıqlandırılmasına eyni diqqət göstərməmişlər. Məhz bu müxtəliflik hərəkat haqqında daha dolğun, obyektiv təsəvvür əldə etməyə yardım göstərir.

Məlum olduğu kimi, Qacar tayfası və sülaləsinin timsalında XVIII əsrin axırlarından XX əsrin əvvəllərinə kimi İranda siyasi hakimiyyətə malik olmuş, ölkənin siyasi, iqtisadi, mədəni və mənəvi həyatında, mütərəqqi ideyaların

yayılmasında aparıcı rol oynamış, lakin yeni dövrə keçid mərhələsinin əvvəllərində milli həyatın etnik komponentlərinin hərtərəfli inkişafı üçün lazımi siyasi, mədəni mühitin yaradılmasına diqqət yetirməmiş cənubi azərbaycanlılar özlərinin hakimiyyətə gətirdikləri Rza xanın şahlıq taxt-tacına sahib olmasından sonra (1925) davam etdirilən mərkəzləşdirmə siyasəti və onun əsasında yeni keyfiyyət kəsb edən milli münasibətlərdə qeyri-bərabər mövqe tutaraq məhkum duruma düşmüşlər. Həmin vaxtdan etibarən 200 min kvadrat kilometrə qədər ərazisi, 5 milyona qədər əhalisi (İran əhalisinin üçdə biri) olan Cənubi Azərbaycan və ölkə əhalisinin yarıdan çoxunu təşkil edən azərbaycanlılar milli hüquqlardan məhrum edilmiş, sosial-iqtisadi cəhətdən getdikcə geriləməyə məcbur edilən bir əyalətə və xalqa çevrilmişdi. Yeni siyasi rejimin şovinist hakim millətçi siyasəti digər xalqların etnomilli inteqrasiya və formalaşma prosesini ləngitməyə çalışmış və bu şəraitdə yalnız Cənubi Azərbaycanda həmin siyasətə müqavimət hərəkatı yaranmağa başlamışdır. Getdikcə hərbi-polis diktaturası xarakteri kəsb edən «konstitusiyalı monarxiya»nın hakim millətçi, şovinist siyasətinə çətinliklə də olsa, mədəni, ideoloji və əməli müqavimət göstərilirdi. 1941-ci ildə beynəlxalq münasibətlər sistemində baş vermiş əsaslı dəyişikliklər və onun İrana bilavasitə təsiri nəticəsində (keçmiş SSRİ, İngiltərə, ABŞ, hərbi qüvvələrinin bu ölkəyə daxil olması) ölkədə yaranmış yeni siyasi durum (Rza şahın öz böyük oğlunun xeyrinə hakimiyyətdən getməsi, senzuranın ləğv edilməsi, siyasi məhbusların azad edilməsi və s.) milli-siyasi, milli-mədəni təşkilatlarda birləşən azərbaycanlılara öz hüquqlarını təmin etmək uğrunda nisbətən mütəşəkkil mübarizəyə başlamaq imkanı vermişdir. İkinci dünya müharibəsinin başa çatması ilə müstəmləkə sisteminin ləğv edilməsinin geniş vüsət aldığı bir şəraitdə İranda yaranmış münasib siyasi-ictimai mühitdən bəhrələnən azərbaycanlılar öz milli-siyasi təşkilatlarını (Azərbaycan Demokrat Partiyası) yaradaraq, daha məqsədyönlü şəkildə siyasi, sosial, mədəni hüquqlarını bərqərar etmək uğrunda mübarizə aparmış və 1945-ci ilin dekabr ayının 12-də (azər ayının 21-də) Milli hökumət təsis etmişlər. Amma az keçməmiş həmin hadisə beynəlxalq münasibətlərin, xüsusən dünənki müttəfiq böyük dövlətlər arasındakı ilişgilərin gərginlik obyektinə çevrildi. Öz təsir və nüfuz dairələrini

qlobal səviyyədə möhkəmlətmək və genişləndirməklə məşğul olan böyük dövlətlər bəzi regionlarda bir-birinə güzəştə getməyə məcbur olurdular. Mərkəzi, Şərqi, Cənubi Avropada və Uzaq Şərqdə öz mövqeyini möhkəmləndirməkdə olan keçmiş SSRİ Yaxın və Orta Şərqdə, o cümlədən İranda geri çəkilməli oldu. Bu, Cənubi Azərbaycanda yenicə fəaliyyətə başlamış Milli hökumətin beynəlxalq dəstəkdən məhrum olması demək idi. Bundan sonra beynəlxalq dəstəyə arxalanan İran irticası Milli hökumətə qarşı təxribat və təzyiqi genişləndirərək, Cənubi Azərbaycana silahlı basqın etdi və 25 mindən çox vətənpərvəri qətlə yetirib milli hakimiyyətin varlığına son qoydu. Yüz minlərlə adam həbs və sürgünlərə məruz qaldı, Cənubi Azərbaycanda daha irticaçı, millətçi şovinist siyasət bərqərar edildi.

Hərəkatın yatırılmasından sonra onun tarixi, gedişi, əhəmiyyəti geniş şəkildə öyrənilməyə başlamış, ona müxtəlif yanaşmalar və qiymətləndirmələr meydana çıxmışdır. Həmin vaxt və ondan sonra fars şovinizmi mövqeyində duran müəlliflər cənubi azərbaycanlıların müstəqil etno-sosial orqanizm olduğunu inkar etdiklərindən, hərəkatın milli zəminə söykənmədiyini, xaricdən (SSRİ) süni şəkildə təşkil edildiyini vurğulamağa çalışırlar.

Əlirza Miyanalının haqqında danışılan kitabı bu tipli əsassız iddialara daha bir tutarlı cavabdır. Kitabda verilən xatirələr, müxtəlif təbəqələri təmsil edən insanlar haqqında məlumatlar, Milli hakimiyyət uğrunda mübarizənin gərginliyini, qələbənin yaratdığı xalq sevincini, bayram əhval-ruhiyyəsini, qurub-yaratmaq əzmini təfərrüatı ilə işıqlandıran fakt və təhlillər bu hərəkatın xəlqiliyinə heç bir şübhə yeri qoymur. Milli hökumətin məğlubiyyəti səbəblərinin kitabda bircə-bircə, səbrlə və bütövlükdə obyektiv şəkildə araşdırılması da yuxarıdakı iddianın əsassız olduğunu inandırıcı şəkildə üzə çıxarır.

Əslində azərbaycanlıların milli hərəkatlarının onların öz hərəkatı olduğunu sübut etməyə ehtiyac yoxdur. Çünki milli hüquqlardan məhrum olan, maddi və mənəvi sərvətləri talan edilən, kimliyi təhqir olunan xalqın azadlıq uğrunda mübarizə aparması təbii haldır. Milli münasibətlər sistemində qeyri-bərabər yer tutan xalqın azadlıq mübarizəsini xarici qüvvələrin təsiri ilə bağlamaq hadisənin mahiyyətini qəsdən təhrif etməkdən başqa bir şey deyildir.

Haqqında danışılan kitabın məziyyətləri yuxarıda qeyd olunanlarla məhdudlaşmır. Əsərdə milli-demokratik hərəkatın yaranma səbəbləri, hərəkatın gedişi, yaranan siyasi, ictimai, mədəni, iqtisadi, hərbi qurumlar, Milli hökumətin ictimai həyatın müxtəlif sahələrində həyata keçirdiyi tədbirlər rəsmi sənədlər, hadisə iştirakçılarının gündəlikləri, xatirələri, dövri mətbuat və elmi ədəbiyyat əsasında hərtərəfli araşdırılır və dövrün, hərəkatın bütöv, canlı obrazı yaradılır. Əsərə yenilik gətirən cəhətlərdən biri dövri mətbuatdan, memuar ədəbiyyatından geniş şəkildə istifadə olunması, müəyyən memuarların (əksəriyyəti çap olunmayıb) ilk dəfə elmi dövriyyəyə daxil edilməsidir. Bu baxımdan haqqında danışılan əsər tədqiqatçılar üçün dəyərli qaynaq ola bilər.

Əsər həcmcə böyük olsa da, çox maraqla oxunur. Çünki burada bədii, publisistik və elmi üslublar bir-birinə çulğaşaraq, üzvi vəhdət təşkil edir və dövrün bitkin, anlaşıqlı obrazının yaradılmasına xidmət göstərir.

Deyilənlərlə yanaşı, haqqında danışılan əsər, fikrimizcə, bəzi nöqsanlardan da xali deyildir.

Kitab sanki daha çox hərəkat iştirakçıları, onların övladları və bilavasitə hərəkatın tarixi ilə yaxından tanış olanlar üçün yazıldığından bir sıra mühüm və ilkin məlumatların qeyd olunması unudulmuşdur. Bunu Cənubi Azərbaycanı, onun XX əsrin birinci yarısındakı tarixini dərindən bilməyən oxucular, o cümlədən xaricdə yaşayan azərbaycanlılar dərhal hiss edəcəklər. Əgər əsər hər hansı bir xarici dilə tərcümə edilsə, bu cəhət özünü daha aydın göstərəcəkdir. Ona görə yaxşı olardı ki, əsərin girişində Cənubi Azərbaycan, azərbaycanlılar, hərəkat ərəfəsində İranda milli münasibətlərin vəziyyəti haqqında müxtəsər məlumat verilsin.

Müəllif hərəkatın yatırılmasında keçmiş SSRİ-nin roluna geniş yer ayırsa da, hərəkata həmin dövlətin dəstəyindən danışmamışdır. Ayrıca vurğulamaq lazımdır ki, keçmiş SSRİ-nin dəstəyi cənubi azərbaycanlıların azadlıq hərəkatının milli zəmində meydana gəlib inkişaf etdiyi müddəasına qətiyyən kölgə sala bilməz. Ümumiyyətlə, tarixdə və xüsusən XX əsrdə beynəlxalq münasibətlərin daha intensiv və hərtərəfli miqyas alması, hərbi-siyasi qruplaşmaların meydana gəlməsi şəraitində milli azadlığa nail olmuş ölkələrin əksəriyyəti bunu beynəlxalq

dəstək sayəsində əldə etmişlər. Böyük dövlətlər öz geosiyasi, strateji məqsədlərindən çıxış etsələr də, milli azadlıq uğrunda mübarizə aparan xalqlara müxtəlif forma və səviyyədə kömək göstərmişlər. İstənilən halda məğlubiyyətin acısı və faciəsini, qələbənin sevincini mübarizə aparan xalq yaşamışdır. Ona görə SSRİ-nin hərəkata hər iki münasibətindən – həm dəstəyindən, həm də yuxarıda qeyd edilən səbəbdən onu dəstəkdən məhrum etməsindən danışmaq lazım idi.

Müəllif həmçinin o dövrdə Şimali Azərbaycanın keçmiş SSRİ-nin tərkib hissəsi olması faktından çıxış edərək, milli hərəkatda şimali azərbaycanlıların bu və ya digər dərəcədə iştirakı məsələsinə də toxunmamışdır. Hər bir azərbaycanlı həmin şanlı və faciəli tarixi bütövlükdə Azərbaycan xalqının tarixinin bir səhifəsi hesab edir. Elə həmin dövrdə də şimali azərbaycanlılar bütün məhdudiyyətlərə baxmayaraq, hərəkata əllərindən gələn yardımı göstərməyə çalışmışlar. Əslində 1945-46-cı illərdəki milli hərəkat azərbaycanlıların öz milli problemlərini həll etmək yolunda ilk birgə təcrübəsi kimi qiymətlənlirilməlidir.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, əsərə iri həcmli «giriş» yazmış müəllif onu «nəticə»siz bitirmişdir. Bizə elə gəlir ki, müəllif bunu müəyyən məqsədlə etmişdir. Əsərə nəticə yazılmaması hələlik hərəkatın bir nəticəyə gəlib çıxmamasından irəli gəlir. Hərəkat davam edir və əldə ediləcək nəticə qabaqdadır, ona görə nəticəsiz hərəkat haqqında əsərə nəticə yazmaq yersiz görünə bilər. Bu, bizim subyektiv mülahizəmizdir. Hər halda əsərə nəticə yazmaq nəinki onun elmi dəyərini artırardı, eyni zamanda milli hərəkatın davam etdiyini göstərməklə onun bugünkü vəziyyəti haqqında müəyyən və lazımi təsəvvür yaradardı. Amma indiki halında əsəri oxuyarkən, yaxın keçmişdə də olsa, nə vaxtsa Cənubi Azərbaycan adlı bir ölkədə baş verib tarixə çevrilmiş hadisə xatırlanır. Amma məlum olduğu kimi, hərəkatın yatırılması zamanı Azərbaycan xalqının mütərəqqi qüvvələrinə, onun elitasına həm də bir rəqib kimi endirilən sarsıdıcı zərbəyə, Cənubi Azərbaycanın geri qalan bir əyalətə çevrilməsinə yönəlmiş siyasətə baxmayaraq, azərbaycanlılar yenidən daha səbrlə, daha ardıcıl və çeşidli formalarda milli hüquqları uğrunda mübarizəni davam etdirdilər. Həmin mübarizə nəticəsində 1979-cu il İran inqilabından sonra azərbaycanlıların milli-mədəni hüquqları qismən qanuni formada (Əsas qanun, 15-ci maddə) tanındı. Bu

hüquqlar indiyə kimi reallaşdırılmasa da, məişət səviyyəsində farslar milli üstünlüklərini açıq şəkildə nümayiş etdirməkdən çəkinməyə başlamışlar. Hazırkı siyasi-mədəni şərait milli hüquqlar uğrunda mübarizənin həm daxildə, həm də xaricdə yeni formada və səviyyədə davam etdirilməsinə zəmin yaratmışdır. Artıq milli-azadlıq hərəkatının ideologiyasının formalaşması başa çatmaq üzrədir, hərəkatın siyasi forması da təşəkkül mərhələsini yaşayır.

Milli hökumətlə başlanmış milli-azadlıq hərəkatı yeni mərhələyə qədəm qoymuşdur. Bunun göstəricilərindən biri Milli hökumətin ideya və ideallarının müasir hərəkatın tərkib hissələrindən birinə çevrilməsidir. Odur ki, Milli hökumətin tarixini araşdırmaq, onun fəaliyyətinin yeni-yeni cəhətlərini müəyyən etmək hərəkatın indiki vəziyyəti baxımından daim aktual və vacib məsələdir. Bu mənada haqqında danışılan əsər milli-azadlıq hərəkatının konkret mərhələsinin dolğun obrazını yaratmaqla hərəkatın ideologiyasının inikşafına dəyərli töhfədir. Biz «Silahla ölçülən torpaq» kitabının müəllifi qardaşımız Əlirza bəyə xalqın milli-azadlığı uğrunda apardığı mübarizədə daha böyük uğurlar arzulayırıq. İnanırıq ki, həmin yolda sərf edilmiş əmək hədər getməyəcək və o gün mütləq gələcəkdir.

***Vidadi Mustafayev,***
*tarix elmləri namizədi*